

*“Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır”.*

**Heydər Əliyev**

# XIZI

Qəzet 1990-cı ildən çıxır.
№ 6 (196) 320
May-iyun 2024-cü il

Təsisçi: Xızı Rayon İcra Hakimiyyəti

# 15 İyun Milli Qurtuluş günüdür





**"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır."**

**Heydər Əliyev,**
**Ümummilli Lider**

**"Danılmaz həqiqətdir ki, Azərbaycanın müasir və müstəqil dövlət kimi mövcudluğu, inkişafı XX əsrdə ikinci dəfə qazandığımız müstəqilliyin ilk illərinə təsadüf edən Milli Qurtuluş Günü ilə əlaqədardır. Qurtuluş Günü Azərbaycan tarixində dönüş nöqtəsi idi."**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

## 15 İyun - Milli Qurtuluş Günü Azərbaycanın taleyini dəyişən zəfər tarixidir

**Azərbaycan xalqının taleyində böyük əhəmiyyəti olan günlərdən biri tariximizə qızıl hərflərlə yazılmış 15 İyun Milli Qurtuluş günüdür. 15 iyun 1993-cü il tarixi Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir.**










1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, inkişafın sarsılmaz təməlləri qoyuldu.

Ümummilli Liderin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi.

Azərbaycan xalqının taleyinin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir.

Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, Vətəninə həsr etmiş müdrik dövlət xadimi Ulu Öndər Heydər Əliyevin adı tariximizə həm də müstəqilliyimizin memarı, yeni Azərbaycanın banisi kimi yazılıb.

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır" - deyən Ümummilli Lider problemlərin həlli üçün, ilk növbədə, bütün səylərini ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin təmin olunmasına yönəltdi və buna nail oldu. Böyük risklərə baxmayaraq, Ulu Öndər dövlətin və dövlətçiliyin qorunması məsuliyyətini öz üzərinə götürdü.

Ulu Öndər Heydər Əliyevin tarixi missiyası xalqın ona olan möhkəm, sarsılmaz inamı və dəstəyi, şəxsiyyətinin böyüklüyü, qüdrəti, əzəməti, eyni zamanda mənsub olduğu Azərbaycan xalqına, Vətəninə sonsuz və təmənnasız sevgisi kimi mühüm amillərə əsaslanırdı.

Dövlətçilik tariximizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömrü boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Ümummilli Lider Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir.

Xızı rayonunda 15 İyun - Milli Qurtuluş Günü hər il olduğu kimi bu il də böyük təntənə ilə qeyd olundu. Hər yerdə əsl bayram əhval-ruhiyyəsi hiss olunurdu.

Xızı Rayon İcra Hakimiyyətinin və Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə Xızı şəhərində iyunun 14-də "15 İyun - Milli Qurtuluş Günü Azərbaycanın taleyini dəyişən zəfər tarixidir" adlı geniş proqramlı bayram tədbiri keçirildi.

Əvvəlcə, tədbir iştirakçıları - Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, Xızı RİHBA-nın işçiləri, YAP Xızı rayon təşkilatının fəalları, hüquq-mühafizə orqanlarının, eləcə də rayonda fəaliyyət göstərən digər idarə, təşkilat və müəssisələrin rəhbərləri və əməkdaşları milli qurtuluşumuzun banisi, Ulu Öndər Heydər Əliyevin Xızı şəhərində ucaldılmış abidəsini ziyarət edərək önünə tər gül dəstələri düzdülər, böyük azərbaycanlının ölməz xatirəsini böyük ehtiramla yad etdilər.

Daha sonra tədbir Heydər Əliyev Parkında mahnı və rəqslərlə, ədəbi-bədii kompozisiyalarla zəngin rəngarəng konsert proqramı ilə davam etdirildi. Mədəniyyət və incəsənət ustalarının ifaları hər dəfə alqışlarla qarşılandı.

***"XIZI", R.M.***
*14 iyun 2024-cü il*

# Xızıda ağsaqqalların hesabat yığıncağı keçirilib

Mayın 27-də Xızı şəhərindəki Heydər Əliyev Mərkəzinin konfrans zalında rayon ağsaqqallarının hesabat yığıncağı keçirilmişdir. Yığıncaqda Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədr müavini Tahir Süleymanov, Xızı rayon Ağsaqqallar Şurasının üzvləri, ziyalılar iştirak etmişlər.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov giriş sözü ilə çıxış edərək bildirmişdir ki, bu gün ağsaqqallar milli-mənəvi dəyərlərimizin qorunması, saflıq, ədalətlilik kimi yüksək insani keyfiyyətlərin cəmiyyətdə





geniş yayılmasını özlərinin əsas vəzifələrindən hesab edir. Eyni zamanda gənc nəslin mənəvi və fiziki sağlamlığına diqqət yetirən ağsaqqallar bu istiqamətdə də əzmkarlıq göstərir, müxtəlif layihələr reallaşdırır, görüşlər keçirirlər.

Xəzər Aslanov öz çıxışında Xızı rayonunda ağsaqqallarla gənclər arasında möhkəm bağlılığın mövcud olduğunu da vurğulamışdır.

Tədbirdə Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədr müavini Tahir Süleymanovun, Xızı rayon Ağsaqqallar Şurasının sədri Arif Nağıyevin və digərlərinin də çıxışları dinlənilmişdir.

Çıxışlarda respublikamızın ictimai-siyasi, mədəni həyatında yaxından iştirak edən ağsaqqalların Azərbaycan xalqının milli mənafeyinə xidmət göstərən fəaliyyətindən bəhs edən fikirlərə geniş yer verilmişdir.

Sonda Xızı rayon Ağsaqqallar Şurasına yeni üzvlər seçilmişdir.

***"XIZI", R.M.***
***27 may 2024-cü il***

# Cəmiyyəti təhdid edən bəlaya qarşı birgə mübarizə aparaq





**Xızıda "Cəmiyyəti təhdid edən bəlaya qarşı birgə mübarizə aparaq!" mövzusunda tədbir keçirilib. Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin, eləcə də Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2024-cü ilə dair Tədbirlər Planına uyğun olaraq, mayın 30-da təşkil olunmuş tədbirin iştirakçıları, əvvəlcə, Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə tər gül dəstələri düzüblər.**









Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilmiş tədbirdə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş ölməz şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra çıxışlar olub.

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Milli Məclisin deputatı Müşfiq Məmmədli, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev və Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov tədbirdə çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, narkotika təhlükəsi artdıqca onunla mübarizə zərurəti daha da aktuallaşır. Narkotiklərdən sui-istifadə və onların qanunsuz dövriyyəsi son onilliklərdə daha çox qlobal miqyas alıb və cəmiyyətdəki sosial-psixoloji mühitə, iqtisadiyyata, siyasətə və qanunun aliliyinə mənfi təsir göstərir.

Diqqətə çatdırılıb ki, narkomaniya , narkotik tərkibli maddələrdən istifadə, onların istehsalı, ticarəti, törətdiyi fəlakətlər bəşəriyyətin varlığını və inkişafını təhdid edən ən təhlükəli problemlərdən biri olmaqda davam edir.

Çıxış edənlər narkomaniya ilə mübarizədə maarifləndirmə işinin vacibliyini və əhəmiyyətini vurğulayıblar. Bildirilib ki, Prezident İlham Əliyev tərəfindən 22 iyul 2024-cü il tarixində təsdiqlənən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" bu problemlə sistemli mübarizə aparılması baxımından böyük önəm daşıyır. Sağlam cəmiyyət naminə zərərli vərdişlərə qarşı mübarizə hər zaman aktualdır. Müasir dövrdə isə gəncləri zərərli vərdişlərdən qorumaq mühüm çağırışdır. Gənclər daha çox bilik qazanmağa, sağlam həyat tərzinə üstünlük verməli, eyni zamanda narkomaniyanın nə qədər zərərli və təhlükəli olduğunu bilməlidirlər.

Yeniyetmə və gənclərin elmə, təhsilə və idmana marağının artırılmasının onların zərərli vərdişlərdən uzaqlaşmalarında vacib amil olduğu qeyd olunub.

Çıxışlarda daha sonra qeyd olunub ki, Prezident İlham Əliyev tərəfindən 2007-2012, 2013-2018 və 2019-2024-cü illəri əhatə edən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair dövlət proqramlarının təsdiqlənməsi və bu mühüm sənədlərin icrası ölkəmizdə narkomaniyaya qarşı mübarizənin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu, dövlət başçısının bu ümumbəşəri sosial bəlanın bütün təzahürlərinə qarşı prinsipial və barışmaz mövqe nümayiş etdirdiyini göstərir.

İnteraktiv formada davam edən tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Narkotik asılılığın əsas qurbanları ən çox yeniyetmələr və gənclərdir. Narkotik vasitələrə aludəçilik həm gəncin özü, həm ailəsi, həm də bütövlükdə cəmiyyət üçün böyük faciə yaradır. Gələcəyimizi mənəvi və fiziki cəhətdən qüsursuz və sağlam görmək arzusundayıqsa, onda ümumbəşəri bəlaya qarşı birgə mübarizə aparaq!

***"XIZI", R.M.***
***30 may 2024-cü il***

# Xızı Rayon İcra Hakimiyyətinin başçısı kənd və qəsəbələrdə vətəndaşlarla səyyar görüş-qəbullar keçirir

**Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov 2024-cü ilin iyun ayı üçün təsdiq olunmuş qrafikə əsasən, iyunun 7-də Məşədi Həsən, iyunun 12-də Tıxlı, iyunun 13-də Ağdərədə sakinlərlə səyyar görüş-qəbullar keçirib.**

Yuxarıda adları çəkilən yaşayış məntəqələrində vətəndaşlarla keçirilən səyyar görüş-qəbullarda Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovla yanaşı Xızı rayon prokuroru Xəyalə Aslanova, millət vəkili Müşfiq Məmmədli, Xızı RİHBA-nın digər məsul şəxsləri, eləcə də müvafiq xidməti qurumların rəhbərləri iştirak ediblər.

Qəbullarda vətəndaşların müraciətləri diqqətlə dinlənildikdən sonra onları narahat edən problemlərlə əlaqədar müzakirələr aparılıb. Müzakirələrdə xüsusilə yol, qaz, su, internet, mobil şəbəkə və ev telefonları ilə bağlı məsələlər önəmli xarakter daşıyıb. Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov problemlərin həlli istiqamətində edilən müraciət, təklif və şikayətlərlə bağlı müvafiq qurumların rəhbərlərinə tapşırıq və göstərişlərini verib.

***"XIZI", R.M.***


*Məşədi Həsən kəndi*


*Ağdərə kəndi*


*Ağdərə kəndi*


*Ağdərə kəndi*


*Tıxlı kəndi*


*Tıxlı kəndi*

# Xızı Rayon İcra Hakimiyyəti başçısının 2024-cü ilin iyul ayı ərzində keçirəcəyi səyyar görüş-qəbullar barədə məlumat

| Sıra № | Rayon | Səyyar görüş-qəbulun keçiriləcəyi yaşayış məntəqəsi | Səyyar görüş-qəbulun keçiriləcəyi yer | Səyyar görüş-qəbulun tarixi | Səyyar görüş-qəbulun keçiriləcəyi saat |
|---|---|---|---|---|---|
| 1 | Xızı | Giləzi qəsəbəsi | Giləzi qəsəbə tam orta məktəbin binası | 05.07.2024 | 11:00 |
| 2 | | Sitalçay kəndi | Sitalçay kənd uşaq bagçasının binası | 12.07.2024 | 11:00 |
| 3 | | Şorabad qəsəbəsi | Şorabad qəsəbə tam orta məktəbin binası | 17.07.2024 | 11:00 |
| 4 | | Xızı şəhəri | Xızı şəhər tam orta məktəbin binası | 19.07.2024 | 11:00 |

# Şanlı tariximizin parlaq səhifəsi

*"Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır."*

**Heydər Əliyev,**
**Ümummilli Lider**

*"Müstəqilliyimizin qorunması, möhkəmlənməsi ən vacib məsələlərdən biridir. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq!"*

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**





"23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmiş, Cümhuriyyətin beynəlxalq münasibətlər sistemində tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atılmışdır.Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, habelə demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynamışdır."

Bu fikirlər mayın 24-də Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilmiş "28 May - Müstəqillik Günü şanlı tariximizin parlaq səhifəsidir"adlı tədbirdə səslənmişdir.

Xızı şəhərindəki Heydər Əliyev Mərkəzinin konfrans zalında təşkil olunmuş tədbirdə Xızı RİHBA-nın, eləcə də rayonda fəaliyyət göstərən idarə, təşkilat və müəssisələrin əməkdaşları və ziyalılar iştirak etmişlər.

Əvvəlcə, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Tədbiri giriş sözü ilə açan Xızı RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov müsəlman Şərqinin və türk dünyasının ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını tarixi keçmişimizin şanlı səhifələrindən biri kimi səciyyələndirmiş, öz ərazi bütövlüyünü təmin etmiş Azərbaycan xalqının məhz bu günü təntənə ilə qeyd etdiyini diqqətə çatdırmışdır.

A.Hüseynov bildirmişdir ki, yaranmasının 106 illiyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi kimi cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi nöqteyi-nəzərindən böyük əhəmiyyət kəsb edib.

Natiq daha sonra vurğulamışdır ki, öz əvəzsiz xidmətləri ilə gerçək bir tarix yaradan və hamımızın qəlbində xüsusi yeri olan Ümummilli Lider Heydər Əliyevin fədakar siyasi fəaliyyətinin, gərgin əməyinin bəhrəsi olaraq bu gün müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin acı taleyini yaşamır və müstəqillik yolunda dönmədən irəliləyir.

Tədbirdə Azərbaycan xalqının istiqlal mübarizəsi tarixindən, bu mühüm tarixi və ictimai-siyasi hadisənin dövlət quruculuğu təcrübəsində, milli yaddaşda yeri və rolundan bəhs edən çıxışlar dinlənilmişdir.

Cıxış edənlər Azərbaycan Xalq Cümhuriyyətinin az ömür yaşasa da, xalqımızın yaddaşında əbədi iz qoyduğunu , milli dövlətçilik ənənələrinin iyirminci əsrin sonunda yenidən bərpa edilməsində siyasi və mədəni məktəb olduğunu, azadlıq və müstəqillik hisslərini bir daha coşdurduğunu, milli dövlət atributlarının yaradılmasında qətiyyətli və əhəmiyyətli tədbirlər həyata keçirildiyini, həmin dövrdə görülən bütün çoxsaylı işlərin xalqımızın qədim dövlətçilik ənənələrinin yenidən bərpa olunmasına, milli qürurun daha da artmasına böyük təsir göstərdiyini vurğulamışlar.

Sonda müstəqilliyimizin tarixi inkişaf yolunu əks etdirən videokompozisiya nümayiş olunmuşdur.

***"XIZI", R.M.***
***24 may 2024-cü il***

# COP29-un Azərbaycanda keçirilməsi Prezident İlham Əliyevin siyasi uğurudur

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un 2024-cü ildə Azərbaycanda keçirilməsi ilə əlaqədar qərarın qəbul edilməsi ölkəmizin beynəlxalq arenada növbəti böyük uğurudur.**

Bu nüfuzlu, qlobal xarakterli möhtəşəm tədbirin məhz Vətənimizin paytaxtı Bakıda keçirilməsinə dair qərarın bütün dünya ölkələri tərəfindən qəbul edilməsi Azərbaycana böyük etimad və hörmətin təzahürü, Prezident İlham Əliyevin diplomatik uğurunun nəticəsidir.

Davamlı olaraq nüfuzlu beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi dövlətimizin başçısı tərəfindən aparılan məqsədyönlü siyasət nəticəsində ölkəmizin dünya miqyasında çox güclü mövqelərə sahib olduğundan xəbər verir.

Azərbaycanın beynəlxalq aləmdə olan hörmətinin günbəgün artmasında

müstəqil siyasət, prinsipial mövqe nümayiş etdirməyimiz, beynəlxalq hüquqa bağlılıq, sədaqət və eyni zamanda, ölkə ərazisində suverenliyimizin bərpa edilməsi kimi önəmli amillər böyük rol aynayır.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsinin siyasi əhəmiyyət daşıdığını vurğulayan Prezident İlham Əliyev bildirib: " Bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror tədbirlərdən iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir."

Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olub. Yəni, beynəlxalq ictimaiyyət yekdil mövqeyini nümayiş etdirib.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik etməsini 120 ölkə dəstəkləmişdirsə, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsini bütün dünya ölkələri dəstəkləyib. Bu, beynəlxalq dəstəyin böyük göstəricisidir.

İrimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi üzərimizə böyük məsuliyyət qoyur.

Azərbaycan indiyə qədər bir sıra beynəlxalq tədbirlərə sahiblik edib. COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hətta Avropa Oyunları zamanı Azərbaycana 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndənin ölkəmizə gəlməsi nəzərdə tutulur.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar müşavirədə Prezident İlham Əliyev öz çıxışında bildirib: "İki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq tədbirlərdə iştirak etmək üçün ölkəmizə səfər edəcək."

COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır.

Artıq Azərbaycanda COP29-un keçirilməsinə hazırlıq gedir. COP29 beynəlxalq konfransı ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir. Bizim gündəliyimizin yaşıl enerji ilə bağlı olduğunu bütün dünya görəcək.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda Azərbaycanın enerji siyasətinin önəmli istiqamətidir.

***"XIZI"***

# Xızıda növbəti dəfə qanvermə aksiyası keçirilib






**Uzun illərdir ki, vaxtaşırı olaraq talassemiya və hemofiliya xəstəliklərindən əziyyət çəkən uşaqlara yardım məqsədilə Xızı rayonunda qanvermə aksiyaları təşkil olunur. Bu, artıq ənənəvi xarakter alıb.**

İyunun 5-də Xızı Rayon Mərkəzi Xəstəxanasında təşkil olunmuş növbəti qanvermə aksiyasında Xızı Rayon İcra Hakimiyyətinin işçiləri, rayonda fəaliyyət göstərən hüquq-mühafizə orqanlarının, eləcə də digər idarə, təşkilat və müəssisələrin əməkdaşları, könüllülər iştirak ediblər.

Aksiyada iştirak edənlər, əvvəlcə, tibbi müayinədən keçiblər. Daha sonra Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Hematologiya və Transfüziologiya İnstitutunun nəzdindəki Mərkəzi Qan Bankının həkim briqadası donorlardan qan götürüb.

Xızı Rayon Mərkəzi Xəstəxanasında qanvermədə iştirak edən şəxslər üçün rahat şərait yaradılıb.

***"XIZI", R.M.***
***05 iyun 2024-cü il***

# Vətənin azadlığı uğrunda şəhid olan gözlər

## *Qazi Kamran Baxşizadə: "... Mən şəhid olmasam da, gözlərim şəhid oldu."*

**44 günlük Vətən müharibəsində qazanılan Zəfər Azərbaycan tarixinin ən şanlı, ən parlaq səhifəsidir. Şəhidlərimizin qanı-canı, qazilərimizin itirilmiş sağlamlıqları bahasına, ümumilikdə Azərbaycan hərbçilərinin, Azərbaycan döyüşçülərinin şücaəti, igidliyi, rəşadəti hesabına tariximizin dastanlara sığmayan qəhrəmanlıqlarla dolu bu əbədiyaşar səhifəsinin yazılmasında qazi Kamran Baxşizadənin də öz payı var. Bu pay - 30 ilə yaxın düşmən tapdağı altında qalan Qarabağın azad olunması uğrunda verdiyi göz payıdır.**



1994-cü il oktyabrın 14-də Xızıda anadan olmuş Baxşizadə Kamran Tarel oğlu ilk təhsilini şəhid Rafiq İsmayılov adına Xızı şəhər orta məktəbində alıb. 2012-ci ildə Naxçıvan Universitetinə daxil olan Kamran 2016-cı ildə həmin təhsil ocağını tarix müəllimi ixtisası üzrə bitirib. 2016-17-ci illərdə Naxçıvanda hərbi xidmətdə olub. 2017-ci ildən II Qarabağ müharibəsi başlayana qədər Xızı Rayon Məhkəməsində dəftərxana müdiri vəzifəsində çalışıb. 2020-ci il sentyabrın 27-də könüllü olaraq Vətən müharibəsinə gedib. Erməni işğalçılarını torpaqlarımızdan qovmaq, onlardan qisas almaq amalı ilə, ürəyində Vətən sevgisi, Vətən eşqi ilə müharibəyə yollanan Kamran Baxşizadə xüsusi təyinatlı dəstələrin tərkibində döyüşlərə qatılıb. Ağdərə -Tərtər istiqamətində gedən qanlı savaşlarda iştirak edib.

Oktyabrın 14-də Suqovuşanda torpaqlarımızın işğaldan azad olunması zamanı növbəti hərbi əməliyyatlarda iştirak edən Kamran kəşfiyyat tapşırıqlarını yerinə yetirərkən, düşmən mərmisinə tuş gələrək ağır yaralanıb, gözlərini itirib.

Bəli, 1994-cü il oktyabrın 14-də dünyaya göz açan Kamran Baxşizadə 26 il sonra öz doğum günündə həmin gözləri itirdi...

Lakin gözlərinin nurunu itirən qazi Kamran Baxşizadənin çöhrəsində səmimiyyət, mehribanlıq, alicənablıq, qürurluluq, vüqarlılıq, mətinlik, həyat şövqü itməyib. Vücudunda, hər addımında məğrurluq var, hər kəlməsində "Vətən" var, "Millət" var, "Torpaq" var onun!

"Xızı" qəzetinə verdiyi müsahibədə həmsöhbətim Kamran Baxşizadə bildirdi: "Oktyabrın 14-ü həm doğum günümdür, həm də candan əziz Vətənimin azadlığa qovuşması uğrunda gözlərimi itirdiyim gündür. Bu tarix mənim üçün əlamətdar və qürurvericidir. Millətim, dövlətim, torpağım naminə işğalçıları məhv edərək gözlərimi itirdiyim gün mənim üçün fəxarət günüdür. Mən şəhid olmasam da, gözlərim şəhid oldu."

Ağır yaralanaraq gözlərini itirdiyi günü səbrlə, təmkinlə, fəxrlə xatırlayan Kamran Baxşizadə möcüzə şəklində yenidən həyata qayıtmasını döyüş dostlarının və həkimlərin fədakarlığı nəticəsində baş verdiyini söylədi.

Kamran Tarel oğlu Baxşizadə Azərbaycan Prezidenti cənab İlham Əliyevin 18 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Cəsur döyüşçü", 29 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli Sərəncamı ilə "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunub.

Bildiyimiz kimi, respublikamızda həyata keçirilən sosial siyasətin əsas prioritetlərindən biri də müharibə əlilləri, şəhid ailələri və qazilərə göstərilən dövlət qayğısıdır. Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyev dövlət qurumları qarşısında bu həssas təbəqəyə aid olan insanların problemlərinin həllini mühüm vəzifə kimi müəyyən edib. Elə bu səpkidə apardığımız söhbət zamanı qazi Kamran Baxşizadə dedi: "Prezident İlham Əliyev başda olmaqla, müvafiq dövlət qurumları tərəfindən daim diqqət və qayğı ilə əhatə olunmuşam. Mənə Sumqayıt şəhərində 3 otaqlı mənzil və "Xazar" markalı minik avtomobili verilib. Xızıda valideynlərimlə birgə yaşadığım fərdi ev Ədliyyə Nazirliyi tərəfindən yüksək keyfiyyətlə tam təmir olunub. Həyət və küçə asfaltlanıb. Bayramlarda və əlamətdar günlərdə sovqat və yardımlar göndərilir. Ailə üzvlərimin işlə təmin olunmasında köməklik göstərilib. Bunu da müsbət qiymətləndirirəm. Belə ki, DOST Mərkəzi tərəfindən bacım işlə təmin olunaraq mənə qulluq edir, xidmət göstərir. Qardaşım Şükür Baxşizadə Xızı Rayon Məhkəməsində mənim əvvəllər icra etdiyim vəzifəyə təyin olunub. O, hal-hazırda hərbi xidmətdədir. Onu da qeyd edim ki, Xızı Rayon İcra Hakimiyyəti, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, "YAŞAT" Fondu, "Azərbaycan Gözdən Əlillər Cəmiyyəti" İctimai Birliyi öz diqqət və qayğılarını heç zaman əsirgəmirlər."

Qazimizin atası Tarel Baxşizadə öz vətənpərvər oğlu ilə fəxr etdiyini qürur hissi ilə vurğulayaq, dövlət tərəfindən göstərilən diqqət və qayğıdan razılığını bildirdi.

"Qarabağ Azərbaycandır!" deyərək Vətənimizin azadlığı naminə canlarını əsirgəməyən minlərlə şəhidimiz, qazilərimiz var. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirik!

***Rafael Məmmədov,***
***"Xızı" qəzetinin***
***baş redaktoru***

# Su ehtiyatlarından səmərəli istifadə aktual məsələlərdən biridir

**Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında "Yaşıl dünya naminə Həmrəylik ili"nin Tədbirlər Planının icrası ilə əlaqədar olaraq Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Su ehtiyatlarından səmərəli istifadənin təmin olunması, alternativ su mənbələrinin yaradılması və həmin mənbələrdən istifadənin genişləndirilməsi" mövzusunda maarifləndirici tədbir keçirilib.**





İyunun 12-də Xızı şəhərindəki Heydər Əliyev Mərkəzinin konfrans zalında təşkil edilmiş tədbirdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin məsul şəxsləri, Xızı Rayon İcra Hakimiyyətinin rəsmiləri, aidiyyəti idarə, təşkilat və müəssisələrin əməkdaşları, Xızı RİHB-nın inzibati ərazi dairələri üzrə nümayəndələri, bələdiyyə sədrləri və kənd təsərrüfatı məhsulları istehsalçıları iştirak ediblər. Tədbirdəki çıxışlarda su ehtiyatlarından səmərəli istifadənin, alternativ su mənbələrinin yaradılmasının ən aktual məsələlərdən biri olduğu vurğulanıb.

Qeyd olunub ki, Azərbaycanda əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi istiqamətində mühüm işlər görülməkdədir. Dövlət başçısının rəhbərliyi ilə son illərdə bununla bağlı ciddi layihələr reallaşdırılmışdır.

Daha sonra çıxışlarda əhalinin içməli suya tələbatının ödənilməsi məsələsinin Xızı rayonunda diqqətdə saxlanıldığı, bununla yanaşı, su ehtiyatlarından səmərəli istifadənin təmin olunması məqsədilə sakinlərlə mütəmadi olaraq maarifləndirici söhbətlərin aparıldığı diqqətə çatdırılıb.

Tədbir Xızı rayonunda alternativ su mənbələrinin yaradılmasının vacibliyi ilə bağlı bir sıra təkliflər səsləndirilməsi və mövzu ətrafında müzakirələrin aparılması ilə yekunlaşıb.

***"XIZI", R.M.***
***12 iyun 2024-cü il***



*Elvin Məmmədov,*
*Xızı Rayon Prokurorluğunun müstəntiqi,*
*II dərəcəli hüquqşünas*

"Ətraf mühitin qorunması hər bir şəxsin borcudur."

***Azərbaycan Respublikasının Konstitusiyası (Maddə 78)***

Azərbaycan Respublikasının Konsitutusiyasının 39-cu maddəsində birbaşa təsbit olunmuşdur ki, hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır. "Ətraf mühitin mühafizəsi haqqında" 8 iyun 1999-ci il tarixli Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən, ətraf mühit dedikdə insan fəaliyyətindən asılı olmayaraq, onu əhatə edən canlı və cansız təbiətin məcmusu başa düşülür. Dövlət insanların sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin olunması üçün ayrı-ayrı qanunlarda, məcəllələrdə fiziki və hüquqi şəxslərin, idarə, müəssisələrin, vəzifəli şəxslərin hüquq və vəzifələrini, eyni zamanda məsuliyyət tədbirlərini də müəyyən edir.

I. Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır.

II. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır.

III. Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz.

IV. Dövlət ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir.

***Azərbaycan Respublikası Konstitusiyası (Maddə 39)***

# Ekoloji cinayətlər

Azərbaycan Respublikasının Konsitutusiyasının 78-ci maddəsi vətəndaşlar qarşısında "ətraf mühitin qorunması hər bir şəxsin borcudur" vəzifəsini qoyur. Eyni zamanda, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Konstitusiyasının 78-ci maddəsində birbaşa göstərilmişdir ki, "Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan hüquqi və fiziki şəxslər, o cümlədən vəzifəli şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar."

Ətraf mühitin mühafizəsi dedikdə ətraf mühitdə təbii mövcud olan maddi varlıqların ilkin kəmiyyət və keyfiyyətcə dəyişmələrə yol verilməməsi, qorunub saxlanması, təbiətdən istifadə dedikdə isə gələcək nəsillərin ehtiyacını nəzərə almaqla, cəmiyyətin sosial-iqtisadi tələblərini ödəmək məqsədilə ətraf mühitin ekoloji tarazlığının pozulmasına yol verilmədən təbii resurslardan səmərəli və qənaətlə istifadə edilməsi anlamına gəlir.

Təəssüf ki, hər kəs təbiətdən düzgün istifadənin və ətraf mühitin mühafizəsinin hər birimiz üçün nə qədər əhəmiyyətli olduğunu başa düşmür, qəsdən və ya ehtiyatsızlıqdan təbiətə ziyan vurur.

Ekoloji təhlükəsizliyin təmin edilməsi təkcə hüquqi deyil, həm də iqtisadi məzmuna malikdir. Ekoloji təhlükəsizliyin təmin edilməsi dövlətin həm də iqtisadi strategiyasının obyektidir. Ekoloji hüquq pozuntuları ilə mübarizədə həm mülki-hüquq, həm də inzibati-hüquq təsir tədbirlərindən istifadə edilir. Bununla belə, ekoloji hüquq pozuntularının ictimai təhlükəliliyinin artması həmin təsir tədbirləri ilə yanaşı, cinayət-hüquq tədbirlərindən də istifadə olunmasını şərtləndirir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin vəzifəsi sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etmək, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, Azərbaycan Respublikasının konstitusiya quruluşunu, həmçinin ətraf mühiti cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir. Bu vəzifələri həyata keçirmək üçün Cinayət Məcəlləsində cinayət məsuliyyətinin əsasları və prinsipləri, cinayət sayılan əməllərin dairəsi, tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər tədbirləri müəyyən edir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsi cinayət qanunvericiliyi tarixində ilk dəfə olaraq vətəndaşların ekoloji hüquqlarına üstünlük verərək bu hüquqların mühafizəsini bir vəzifə olaraq qarşıya qoymuşdur.

Törədilən ekoloji cinayət əməllərinin dairəsini və tətbiq edilən cəzaları müəyyən etmək üçün 1 sentyabr 2000-ci il tarixdən qüvvədə olan Azərbaycan Respublikasının Cinayət Məcəlləsində "Ekoloji cinayətlər" ayrıca 28-ci fəsildə verilməklə, həmin fəslə 15 ekoloji cinayət hüquq norması daxil edilmişdir.

Cinayət Məcəlləsində ekoloji cinayətin anlayışı verilməsə də, bir sıra mənbələrdə ekoloji cinayət dedikdə cinayət qanunu ilə qadağan edilmiş, ekoloji təhlükəsizliyə qarşı yönəlmiş təqsirli və hüquqazidd ictimai təhlükəli əməl başa düşülür. Yəni ətraf təbii mühitin və onun resurslarının qorunması və istifadəsi ilə bağlı olan müxtəlif ictimai münasibətlərə, həmçinin ekoloji təhlükəsizliyə təminat verən münasibətlərə təhlükə yaradan və cinayət qanunun normaları ilə qadağan edilmiş hüquqazidd əməllər (hərəkət və ya hərəkətsizlik) başa düşülür. Bu əməllərin xarakteri onun ekoloji xarakter daşıması, hüquqa zidd olması və ictimai təhlükəlilik dərəcəsi ilə müəyyən edilir. Ekoloji cinayətlərin ictimai təhlükəliliyi yalnız ekoloji və iqtisadi zərərləri deyil, həmçinin insanların sağlamlığına edilən qəsdləri də əhatə edir. Balıq və digər su bioresurslarının qanunsuz tutulması min manatdan yeddi min manatadək olan məbləğdə ziyan vurmaqla törədildikdə əməl Cinayət Məcəlləsinin 256-cı maddəsi, meşələrdə və ya xüsusi mühafizə olunan təbiət ərazilərində ağacların, kolların və ya digər yaşıllıqların, eləcə də meşə fonduna daxil olmayan ağacların, kolların və ya digər yaşıllıqların qanunsuz kəsilməsi (götürülməsi) min manatdan yeddi min manatadək olan məbləğdə ziyan vurmaqla törədildikdə əməl Cinayət Məcəlləsinin 259-cu maddəsi ilə cinayət məsuliyyəti yaradır. Bu hallarda vurulan ziyan ekoloji və iqtisadi zərəri əhatə edir. Digər bir halda isə, saxlanması, istifadə edilməsi yaxud daşınması zamanı gübrələrlə, təhlükəli kimyəvi və ya bioloji maddələrlə davranış qaydalarının pozulması nəticəsində



təsərrüfat və ya başqa fəaliyyətin zərərli məhsulları ilə torpaqların zəhərlənməsi, çirkləndirilməsi yaxud onların başqa cür korlanması ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olması (Cinayət Məcəlləsi maddə 254.3), yaxud dəniz ətraf mühitini quruda olan mənbələrdən çirkləndirmə, yaxud nəqliyyat vasitələrindən və ya dənizdə quraşdırılmış süni qurğulardan insan sağlamlığı və dənizin canlı sərvətləri üçün zərərli olan, yaxud dənizdən qanuni istifadəyə mane olan maddələri və ya materialları tullama və ya basdırma qaydalarını pozmaqla dəniz ətraf mühitini çirkləndirmə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olması( Cinayət Məcəlləsi maddə 252.3). Burada artıq cinayətin obyekti eyni zamanda insanın həyat və sağlamlığıdır.

Ekoloji cinayət anlayışı ümumi xarakter daşıyır. Lakin konkret hər bir ekoloji cinayətin tərkib elementləri - obyekti,obyektiv cəhəti, subyekti, subyektiv cəhəti istintaq zamanı müəyyən edilməlidir.

Ekoloji cinayətlərin obyekti haqqında hüquq ədəbiyyatında müxtəlif fikirlər söylənilmişdir. Bir qismi bu cinayətlərin obyektini mülkiyyət münasibətləri, digər qismi isə təsərrüfat fəaliyyətində təbii sərvətlərdən istifadə qaydalarını və ya onların istifadəsində olan ictimai münasibətlər hesab edir. Ekoloji cinayətlərin obyektini yalnız mülkiyyətə olan münasibət kimi qəbul etsək, onda ekoloji cinayətlərin spesifik xüsusiyyətlərini itirmiş olarıq, bununla belə ekoloji cinayətləri ancaq təsərrüfat fəaliyyəti ilə də bağlamaq düzgün olmaz. Ekoloji hüquqpozmalar nəticəsində zərər, təkcə, insanların təsərrüfat fəaliyyətinə vurulmur, həm də ətraf mühitə, insanların və canlıların həyat mənbələrinə vurulur. Cinayət Məcəlləsinin 247-ci maddəsində nəzərdə tutulan "işlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozma cinayətinin obyekti sənaye, kənd təsərrüfatı və ya digər fəlaiyyət proseslərində təbiət obyektlərinin qorunub saxlanılmasının, ətraf mühitin sağlamlaşdırılmasının, əhalinin radiasiya təhlükəsizliyinin təmin olunması ilə bağlı olan ictimai münasibətlərdir. Cinayət Məcəlləsinin 248-ci maddəsində nəzərdə tutulan "ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi qaydalarını pozma" cinayətinin obyekti isə ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi zamanı insanların sağlamlığının və ətraf mühitin mühafizəsinin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı olan ictimai münasibətlərdir. Cinayət Məcəlləsinin 256-cı maddəsində nəzərdə tutulan "balıq və digər su bioresurslarını qanunsuz tutma" cinayətinin obyekti balıqların və başqa su heyvanlarının, onların yaşadığı təbii mühitin mühafizəsi, artırılması, istifadəsi sahəsində yaranan ictimai münasibətlərdir.

Ekoloji cinayətlərin əksəriyyəti maddi tərkiblidir, yəni zərərli nəticənin baş verməsi qanunda göstərilir. Məsələn, baytarlıq qaydasının pozulması, o halda Cinayət Məcəlləsinin 249.1-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur ki, baytarlıq qaydalarının pozulması, ehtiyatsızlıqdan epizootiyanın yayılmasına və ya digər ağır nəticələrə səbəb olsun. Ekoloji cinayətlər fəslində olan cinayətlərin bir qismi isə formal tərkibli cinayətlərdir. Qanunsuz olaraq Azərbaycan Respublikasının sahilyanı şelfində təhlükəsizlik zonasını yaratma, habelə quraşdırılan tikliflərin və dəniz gəmiçiliyinin təhlükəsizliyinin təmin edilməsi vasitələrinin tikintisi, istismarı, mühafizəsi və ya ləğv olunması qeydiyyatlarını pozma hərəkətləri edilməsi anından cinayət bitmiş sayılır və Cinayət Məcəlləsinin 253-cü maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur.

Təqsirin formasına görə bu cinayətlər əsasən qəsdən törədilir. Bununla belə, bəzi ekoloji cinayətlər ehtiyatsızlıqla törədilir. Cinayət Məcəlləsinin 251.3-cü maddəsində nəzərdə tutulan "atmosferi (havanı) çirkləndirmə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda", yaxud Cinayət Məcəlləsinin 252.3-cü maddəsində nəzərdə tutulan "dəniz ətraf mühitini çirkləndirmə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda" cinayətlərini nümunə göstərmək olar.

Ekoloji cinayətlərin subyekti həm 16 yaşına çatmış fiziki, anlaqlı və həmçinin bəzi cinayətlərdə vəzifəli şəxslər ola bilərlər. Öz qulluq mövqeyindən istifadə edərək balıq və digər su bioresurslarını qanunsuz tutan şəxsin əməli Cinayət Məcəlləsinin 256.3-cü maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur.

Ekoloji cinayətlərin dispozisiyalarında demək olar ki, motiv və məqsəd göstərilmir. Ekoloji cinayəti törədən şəxs əgər təbiətə zərər vurmaqla yanaşı insanlara ziyan yetirirsə, şəxsiyyət əleyhinə olan cinayətin tərkibi də yaranır.

Yekunda qeyd edək ki, Azərbaycan Respublikasının ekoloji siyasətinin əsas mahiyyəti insanların ekoloji təmiz mühitdə yaşamasını təmin etmək məqsədilə ekosistemlərin qorunması, təbii sərvətlərdən səmərəli istifadə olunması ilə dayanıqlı inkişafın təmin edilməsi, ətraf mühitə vurulan ziyanın minimuma endirilməsi və ətraf mühitin qorunmasından ibarətdir. 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər görülür. İşğaldan azad edilmiş torpaqlarımızda həyata keçirilən genişmiqyaslı yenidənqurma və bərpa işlərində ətraf mühitin qorunması prioritetdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bütün digər sahələrdə olduğu kimi ekoloji sahədə də həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir ki, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi, ekoloji şəbəkənin yaradılması istiqamətində hüquqi-təşkilati, iqtisadi tədbirlər həyata keçirilir. Dövlət başçısı ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib. Bu sahədə həyata keçirilən uğurlu siyasətin məntiqli davamıdır ki, dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası 2024-cü ildə Azərbaycan Respublikasında keçiriləcək. Hər birimiz həyata keçirilən bu uğurlu siyasətə dəstək olmalı, yaşadığımız təbiəti, digər canlıları, ümumilikdə ətraf mühiti qorumalıyıq.

## Mədəniyyət xəbərləri

# Mikayıl Müşfiq Xatirə muzeyində görüş

"Cəmi 29 il ömür yaşayan görkəmli Azərbaycan şairi Mikayıl Müşfiq sanki anadan şair doğulmuşdu. Bunu onun yaradıcılığındakı ürəkləri riqqətə gətirən sevgi dolu şeirlərinin axarlılığında, cazibəsində görürük. Böyük sənətkarın poeziyasında yüksək həyat eşqi, məhəbbətin yenilməzliyi, məğrurluğu, möhtəşəmliyi, ucalığı insan qəlbində bəşəri hisslər oyadır."

Bu fikirlər ötən əsrin 30-cu illərinin repressiya faciəsinin qurbanlarından biri olan nakam şairimiz Mikayıl Müşfiqin anadan olmasının 116-cı ildönümü ilə əlaqədar

Xızı rayonunda keçirilmiş tədbirdə səslənmişdir.

İyunun 5-də Sayadlar kəndindəki Mikayıl Müşfiq Xatirə muzeyində keçirilmiş tədbirə hər il olduğu kimi bu il də paytaxtdan və digər bölgələrdən gəlmiş tanınmış şairlər, yazıçılar, elm, incəsənət xadimləri, eləcə də Xızı rayonunun mədəniyyət işçiləri qatılıblar.

Müşfiqsevərlər görkəmli şairin muzeyin həyətində qoyulmuş büstünü ziyarət edərək, önünə gül dəstələri düzüblər.

Mikayıl Müşfiqin büsti qarşısında davam etdirilən tədbirdə çıxış edənlər ölməz şairin həyat və yaradıcılığından söhbət açıblar. Bildirilib ki, adı Azərbaycan ədəbiyyat tarixinə qızıl hərflərlə həkk olunan Mikayıl Müşfiqin həyat sevdalı şeirləri





istər yaşlı nəsillər, istərsə də gənclər arasında dillər əzbərinə çevrilib. Çıxışlarda qeyd olunub ki, şairin yazdığı şeirlər gəncliyin düzgün tərbiyəsi üçün bir mayakdır. Vətənə, anaya, sevgiliyə həsr etdiyi şeirlərdən bəhrələnən gənclər cəmiyyət üçün faydalı bir insan kimi yetişə bilər.

Daha sonra Mikayıl Müşfiqə həsr olunmuş şeirlər dinlənilib, ölməz sənətkarın yaradıcılığından bəhs edən ədəbi-bədii kompozisiyalar nümayiş olunub.

Tədbir iştirakçıları daha sonra Mikayıl Müşfiq Xatirə muzeyində eksponatlarla tanış olublar.

***"XIZI", R.M.***
***05 iyun 2024-cü il***

# "Uşaqlar cəmiyyətimizin sabahıdır" adlı tədbir keçirilib





1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Xızı şəhər Uşaq Bağçasında "Uşaqlar cəmiyyətimizin sabahıdır" adlı tədbir keçirilib.

Heydər Əliyev Mərkəzinin, C.Cabbarlı adına Mədəniyyət Mərkəzinin eləcə də Xızı rayon Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə təşkil olunmuş tədbir şən və maraqlı keçib. Uşaqların üráyincə olan tədbirdə mədəniyyət işçiləri, tərbiyəçi- müəllimlər də iştirak ediblər.

Uşaq bağçasının körpə fidanları şeirlər söyləyib, rəqs ediblər. Balacaların ifaları alqışlarla qarşılanıb.

***"XIZI", R.M.***
***01 iyun 2024-cü il***

# İnsan Hüquqları Günü qeyd olunub

18 iyun Azərbaycanda İnsan Hüquqları Günü kimi qeyd edilir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 17 iyun 2007-ci il tarixli Fərmanı ilə Ümummilli Lider Heydər Əliyevin 1998-ci ildə ölkəmizdə ilk "İnsan Hüquqları müdafiəsinə dair Proqramı"nı təsdiq etdiyi və insan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirdiyi tarix, yəni 18 iyun Azərbaycanda İnsan hüquqları Günü elan olunub.

Xızı rayonunun mədəniyyət işçilərinin iştirakı ilə iyunun 14-də C.Cabbarlı adına Mədəniyyət Mərkəzində 18 iyun - İnsan Hüquqları Günü ilə əlaqədar tədbir keçirilib. Tədbirə toplaşanlar, əvvəlcə, Vətənimizin bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Daha sonra mövzu ətrafında çıxışlar dinlənilib. Çıxışlarda qeyd edilib ki, Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi ölkəmizdə bu sahəyə göstərilən diqqətin təzahürüdür.

Vurğulanıb ki, ölkəmizdə həyata keçirilən hüquqi islahatların ən mühüm mərhələlərindən biri insan hüquqlarının və azadlıqlarının müdafiəsində səmərəli hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatının yaradılmasıdır. Ombudsman təsisatının yaradılması hüquqi dövlət quruculuğu istiqa-



mətində aparılan islahatların məntiqi davamı olub.

Çıxış edənlər bildiriblər ki, ölkəmizdə insan, vətəndaş hüquq və azadlıqlarının qorunması işi bu gün də təkmilləşdirilir və bu sahədə məqsədyönlü tədbirlər həyata keçirilir.

***"XIZI", R.M.***
***14 iyun 2024-cü il***

# "İnsan hüquqları" mövzusunda maarifləndirici tədbir keçirilib

**Müasir müstəqil Azərbaycanda insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində baş verən əsaslı dəyişikliklər, görülən mühüm işlər Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi genişmiqyaslı islahatlar nəticəsində mümkün olmuşdur.**





Ümummilli Lider Heydər Əliyev tərəfindən 18 iyun 1998-ci il tarixində təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" ölkəmizdə insan hüquqlarının təmin olunması istiqamətində dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşmişdir.

Ulu Öndərin müdrik siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamına əsasən, hər il iyunun 18-nin respublikamızda "İnsan Hüquqlarının Müdafiəsi Günü" kimi qeyd olunması Azərbaycan dövlətinin insan hüquqlarına verdiyi yüksək dəyərin aydın nümunəsidir.

18 iyun İnsan Hüquqlarının Müdafiəsi günüdür. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) tərəfindən elan edilmiş "İnsan Hüquqları Aylığı" çərçivəsində iyunun 13-də Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, eləcə də Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin Xızı rayon sektorunun dəstəyi ilə R.İsmayılov adına Xızı şəhər tam orta məktəbində IX, X və XI sinif şagirdləri ilə "İnsan hüquqları" mövzusunda maarifləndirici tədbir keçirilmişdir.

Tədbirdə insan hüquq və azadlıqları, hüquqpozmalar və onlardan müdafiə üsullarına dair geniş məruzələr dinlənilmişdir. Çıxışlarda vurğulanmışdır ki, ölkəmizdə həyata keçirilən əsaslı islahatlar nəticəsində insan hüquq və azadlıqlarının etibarlı şəkildə təmin olunması mexanizmləri daha da təkmilləşdirilib.

Daha sonra maarifləndirici videoslayd nümayiş etdirilmiş və tədbir iştirakçıları ilə söhbət-disputlar aparılmışdır.

***"XIZI", R.M.***
***13 iyun 2023-cü il***

# "Oxucudan oxucuya" layihəsi həyata keçirilir

***"Kitabçı" nəşriyyatının "Oxucudan oxucuya" layihəsi çərçivəsində iyunun 11-də A. Abdullayev adına Altıağac qəsəbə tam orta və O.Həsənov adına Tıxlı kənd ümumi orta məktəblərində tədbirlər keçirilmişdir.***







Bu tədbirlər Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planının müvafiq bəndlərinə uyğun olaraq, uşaqların maraqlarına toxunan məsələlərdə onların iştirakının təmin edilməsi, regionlarda yaşayan uşaqların fəallığının artırılması məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yanında yaradılmış Uşaq Səfirlər Məclisinin Xızı rayonu üzrə nümayəndəliyi və Xızı Rayon İcra Hakimiyyəti tərəfindən birgə təşkil olunmuşdur.

"Oxucudan oxucuya" layihəsi çərçivəsində təşkil olunmuş tədbirlər ümumtəhsil ocaqlarında böyük maraqla qarşılanmışdır. Yay tətili günlərində asudə vaxtların səmərəli təşkili, kitaba marağının artırılması və mütailə vərdişlərinin inkişaf etdirilməsi üçün şagirdlərə müxtəlif mövzularda kitablar hədiyyə edilmişdir.

Məktəblilərin yay tətili ərəfəsində belə tədbirlərin həyata keçirilməsi önəmli xarakter daşıyır.

*"XIZI", R.M.*
*11 iyun 2024-cü il*

# Məktəblərdə "Son zəng" çalınıb



Tədbirdə çıxış edən məktəbin direktoru Zaur Zeynallı məzunları bu əlamətdar hadisə münasibətilə təbrik edərək, onlara uğurlar arzulayıb.

Tədbiri izləyənlər məzunların və "Birincilər"in ifasında rəngarəng musiqili-bədii kompozisiyalara şahidlik ediblər.

***İyunun 14-də Xızının ümumtəhsil müəssisələrində məzunlar üçün "Son zəng" çalınıb. Xızı məktəblərində keçirilmiş "Son zəng" tədbirlərində Abşeron-Xızı Regional Təhsil İdarəsinin əməkdaşları, müəllimlər, məzunlar və valideynlər iştirak ediblər.***





Tədbirlərdə məktəb məzunlarının iştirakı ilə mahnı və rəqslərdən ibarət musiqi proqramları, ədəbi-bədii kompozisiyalar və əyləncəli səhnələr nümayiş etdirilib.

Dərs ilini müvəffəqiyyətlə başa vuran şagirdlərə fəxri fərmanlar və hədiyyələr təqdim olunub.

Belə tədbirlərdən biri də akademik M.A.Dadaşzadə adına Şorabad qəsəbə tam orta məktəbində təşkil olunub.

*"XIZI", R.M.*
*14 iyun 2024-cü il*

# İdman xəbərləri



## Kross qaçışı

Mayın 23-də Xızı şəhərində atletika idman növünün kross qaçışı üzrə ümumtəhsil müəssisələri arasında rayon birinciliyi keçirilib. Xızı rayonunda atletika idman növünün təbliği, ona marağın artırılması, sağlam həyat tərzinə çağırış və asudə vaxtın təşkili məqsədilə keçirilən birincilik "28 May - Müstəqillik Günü"nə həsr olunub.

Yarışın sonunda qalib və mükafatçılara Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin diplomları təqdim olunub.

*"XIZI", R.M.*
*23 may 2024-cü il*



## Voleybol

**1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş voleybol yarışı keçirilib.**





1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da qeyd edilir. Respublikada uşaqların sağlam, hərtərəfli, Vətənimizə layiq övladlar kimi böyüməsi üçün əlverişli şərait yaradılıb. Prezident İlham Əliyev uşaqların sağlam, gümrah və firavan böyüməsini, onların rifah halının yüksəldilməsini ölkəmizdə dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəliyyət Planı"nın müvafiq bəndlərinə uyğun olaraq, uşaqların maraqlarına toxunan məsələlərdə onların iştirakının təmin edilməsi, regionlarda yaşayan uşaqların fəallığının artırılması məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yanında yaradılmış Uşaq Səfirlər Məclisinin Xızı rayonu üzrə nümayəndələri və fəallarının iştirakı ilə rayon ərazisində müxtəlif tədbirlər təşkil olunur. Belə tədbirlər sırasında voleybol yarışını qeyd etmək olar. Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə mayın 29-da Xızı şəhər tam orta məktəbinin idman zalında keçirilmiş voleybol yarışında dörd komanda iştirak edib. Qaliblərə diplomlar təqdim olunub.

*"XIZI", R.M.*
*29 may 2024-cü il*


## "Xızı" qəzetinin oxucularının nəzərinə!

Xızı Rayon İcra Hakimiyyətinin mətbu orqanı olan "Xızı" qəzetinə 2024-cü il üçün abunə yazılışı davam edir:

1 illik abunə qiyməti 12 manatdır.

Abunə yazılışına tələsin!

**Əlavə məlumat üçün əlaqə telefonları: (050) 547-65-39; (050) 965-88-89; Whatsapp: (070) 831-95-96**



Baş redaktor:
**Rafael Məmmədov**
Tel: (050) 965-88-89; (050) 547-65-39; (070) 831-95-96
*Whatsapp:* (050) 965-88-89; (070) 831-95-96
*Elektron ünvan: xizi.r.m@mail.ru*





*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.*
*VÖEN: 7800023401*
*H/h: 33080019442400230124*

Qəzet "Bəxtiyar - 4 İKF" mətbəəsində çap edilib.

Qəzetdə gedən yazılara görə müəlliflər özləri məsuliyyət daşıyırlar.

*Tiraj: 600*
*Sifariş: 977*
*Ünvan: Xızı şəhəri, Vüsaqi küçəsi - 28*